# Böyük Qayıdış sülhü və rifahı ehtiva edir

**Uzun illər gözlənilən o həsrət yolu artıq ümid yoluna çevrilib. Vətənindən ayrı düşən yurddaşlarımızın gözlərində illərlə qalan həsrəti indi sevinc gözyaşları əvəz edir. Böyük Qayıdış davam edir, insanlarla bərabər xatirələr də geri dönür. Hər addımda bir dirçəliş, hər nəfəsdə bir azadlıq qoxusu duyulur, çünki Vətən övladları öz yurduna qovuşur.**

Ölkə başçısının tapşırığına uyğun olaraq, işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdış davam etdirilir. Növbəti təyinat nöqtəsi isə Ağdərə rayonunun yenidən qurulan Su-



qovuşan kəndi olub. Respublikanın müxtəlif yerlərində, əsasən yataqxanalarda, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələr ata-baba yurduna qovuşub. Bu mərhələdə kəndə 53 ailə - 174 nəfər köçürülüb. Doğma yurda qayıdan sakinlər hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür ediblər. Onlar, həmçinin torpaqlarımızı işğaldan azad edən rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət diləyiblər.

**(davamı 7-ci səhifədə)**

# Böyük Qayıdış sülhü və rifahı ehtiva edir







**(əvvəli 1-ci səhifədə)**

Uzun illərin həsrətindən sonra Qarabağ torpaqları artıq yeni nəfəs və gələcək ümidlərlə doludur. Burada genişmiqyaslı layihələr icra olunur, viran qalmış kəndlər, dağıdılmış şəhərlər dirçəldilir. Səhiyyə, təhsil, mədəniyyət, turizm, sənaye və energetika sahələrində quruculuq ruhu hər tərəfdə hiss olunur, bu yerlərə həyat şərəfli qayıdır. Artıq 40 minə yaxın insan burada yaşayır, qurur, yaradır. Bu torpaqlarda təkcə evlər yox, həm də ümidlər dirçəlir. Prezident İlham Əliyevin bölgəyə tez-tez səfər etməsi Böyük Qayıdış prosesinə verilən yüksək siyasi iradənin və bu regiona göstərilən xüsusi diqqətin bariz nümunəsidir. Hər səfəri ilə dövlət başçısı azad olunmuş torpaqlarda gedən bərpa-quruculuğa birbaşa rəhbərlik edir, həyata keçirilən layihələrin gedişini yerindəcə izləyir, yeni sosial obyektlərin açılışında iştirak edərək keçmiş köçkünlərə dövlətin onların yanında olduğunu nümayiş etdirir.

Xüsusilə də Prezidentin Novruz bayramı kimi milli və mənəvi dəyərlərimizə xüsusi önəm verilən bir gündə məhz azad olunmuş torpaqlarda olması, tonqal yandıraraq xalqla birlikdə bayram etməsi böyük rəmzi məna daşıyır. Bu, dirçələn torpaqlarda həyatın, birliyin və qürurun yenidən alovlanması deməkdir. Bu tonqal illər boyu sönmüş ocaqların yenidən alışdığına, vətənin hər qarışında həyatın bərpa olunduğuna işarədir. Dövlət başçısı və birinci xanım Mehriban Əliyeva martın 18-də Ağdərə rayonunun Həsənriz kəndində buraya köçən bir qrup sakinlə görüşüb, fərdi evlərin və infrastrukturun bərpası sahəsində görülən işlərlə tanış olub. Prezident söhbət zamanı bildirib ki, biz haqlı olan tərəfik, həm işğal dövründə öz haqq səsimizi ucalda bilmişik və bütün dünyaya sübut edə bilmişik ki, bu, bizim tarixi və hüquqi torpağımızdır: "Həm də İkinci Qarabağ müharibəsi dövründə baxmayaraq ki, Ermənistanın arxasında bir çox ölkələr, bir çox qüvvələr dayanmışdı, heç kim bizə əsaslı irad tuta bilməmişdi. Çünki biz beynəlxalq hüquq çərçivəsində öz torpağımızda müharibə aparırdıq".

Haqq qalib gəldi, ədalət zəfər çaldı. Azərbaycan öz doğma torpaqlarını işğaldan azad etdi. Otuz ilə yaxın müddətdə həsrətlə gözlənilən qayıdış 2020-ci ilin şanlı Qələbəsi ilə reallığa çevrildi. Bu Qələbə milli ruhun, ləyaqətin, xalq iradəsinin zəfəri oldu. Bu torpaqlar uğrunda canından keçən şəhidlərin ruhu rahatlıq tapdı, qazilərimizin əzmi və xalqımızın birliyi isə bütün dünyaya nümunə oldu. İndi isə həmin müqəddəs zəfərin nəticəsi olaraq Qarabağ və Şərqi Zəngəzur yenidən dirçəlir, həyat öz axarına qayıdır. Hər daşın yerinə qoyulduğu, hər yolun çəkildiyi bu torpaqlarda həm keçmişin izləri qorunur, həm də gələcəyin təməli atılır. Böyük Qayıdış eyni zamanda hər iki bölgənin gələcəyini müəyyən edən strateji, sosial və iqtisadi baxımdan həlledici mərhələdir. Azad edilmiş ərazilərin bərpası və bu bölgələrə həyatın qaytarılması milli birliyimizin, ərazi bütövlüyümüzün və dövlətçiliyimizin möhkəmlənməsində mühüm rol oynayır. Qarabağ və Şərqi Zəngəzur bölgəsi coğrafi baxımdan regionun strateji mərkəzində yerləşir. Bu ərazilərin təhlükəsizlik baxımından tam nəzarətdə saxlanılması, dövlət sərhədlərinin qorunması və Ermənistanla sərhədin möhkəmləndirilməsi baxımından olduqca vacibdir. Burada yeni hərbi hissələrin, sərhəd komendantlıqlarının qurulması və infrastruktur layihələrinin icrası Azərbaycanın müdafiə qabiliyyətini daha da gücləndirir.

Böyük Qayıdış proqramı çərçivəsində artıq minlərlə insan doğma yurduna qayıdıb. Məktəblərin və uşaq bağçalarının istifadəyə verilməsi, səhiyyə müəssisələrinin yaradılması və sosial xidmətlərin təmin olunması insanların təhlükəsiz və firavan yaşayışı üçün vacib zəmin yaradır. Eyni zamanda bu, əhalinin regionlar üzrə yerləşməsi ölkə daxilində demoqrafik tarazlığın bərpa olunması, urbanizasiya yükünün azaldılması baxımından da olduqca əhəmiyyətlidir. İllərlə köçkün həyatı yaşayan insanlar üçün doğma yurdlarında yaşamaq, işləmək və gələcək qurmaq hüququnun təmin olunması böyük bir sosial ədalət nümunəsidir.

Böyük Qayıdış Azərbaycan tarixində yeni bir səhifənin, qüdrətli gələcəyin təməlidir. Bu dönüş həm xalqımızın iradəsinin, həm də dövlətimizin müdrik siyasətinin təntənəsidir. Bərpa-quruculuq çərçivəsində kənd təsərrüfatı, sənaye, alternativ enerji, turizm kimi sahələr üzrə yeni layihələr həyata keçirilir. Əkinəyararlı torpaqlar, su ehtiyatları, təbii resurslar və coğrafi mövqe bu bölgəni iqtisadi inkişaf mərkəzlərindən birinə çevirir. Xüsusilə "ağıllı kənd" və "ağıllı şəhər" konsepsiyası ilə qurulan infrastruktur, ekoloji baxımdan dayanıqlı, müasir və yüksək texnologiyalı yaşayış məntəqələrinin yaradılması regionu innovativ inkişaf məkanına çevirir. Bu isə öz növbəsində yeni iş yerləri, investisiya imkanları və ixrac potensialı deməkdir. Bu gün azad olunmuş torpaqlarda yüksələn bayrağımız, sabah burada yaşayacaq minlərlə uşağın sülh və rifah içində böyüməsinin rəmzidir. Qayıdış davam edir və bu qayıdış bizi daha güclü, daha birləşmiş və daha möhtəşəm Azərbaycanın sabahına aparır.

**Nurcan SÜLEYMANOVA,**
**"Respublika".**